# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №18 (88) • 14.05.2012

AzadliqRadiosu.az®

**Qafqaz Müsəlmanları İdarəsindən İrana cavab** səh.2

**Rafiq Tağının adı Vaşinqtonda əbədiləşdirilir** səh.3

Fəzail Ağamalı: **"Bu pul nədir ki?!"** səh.6

**Ракетный щит от иранской угрозы** səh.7

**Azərbaycanın birinci lediləri** səh.12

**Yerevan dağıntı təhlükəsi ilə üz-üzədir** səh.14

## Maraqlı videolar

- Zəlzələ bölgəsindən son görüntülər
- Müxalif gənclər Gül bayramına etiraz etdilər
- Erməni hərbi qüvvələri Qarabağda parad keçiriblər

**www.AzadliqRadiosu.az**

# «Anamı öldürən azadlıqda gəzir»



səh.5

**Sumqayıt sakini ümidini Ali Məhkəməyə bağlayıb**

## «Time»: «Eurovision» Azərbaycan üzərindən pərdəni qaldırır

*«Time» jurnalında William Lee Adams-ın «Azərbaycanın satılması» adlı yazısı dərc edilib. Yazıda qeyd olunur ki, ötən il Ell & Nikki-nin «Eurovision» qələbəsindən sonra ölkə prezidenti İlham Əliyev bu qələbəni hərbi zəfər kimi təqdim etdi. Halbuki bu, Azərbaycanın imici üçün əsl fəlakətə çevrilə bilər.*

səh.13

Sözsüz



**Rəsul Quliyevin tərəfdarının evində axtarış aparıldı** səh.2

Hacıbala Abutalıbov: **"Bakıda güllər insanların sayından çox olacaq"** səh.4

Gallup: **в Азербайджане высокий уровень бизнес-коррупции** səh.7

**Əcnəbilər Bakıda otel tapa bilmir** səh.9

# Qafqaz Müsəlmanları İdarəsindən İrana cavab



Təbrizdə «Eurovision»a qarşı aksiyadan görüntü

**Mayın 8-də İranın Təbriz şəhərindəki Azərbaycan konsulluğu qarşısında «Eurovision»a qarşı mitinq keçirilib. İran mediası yazır ki, «minlərlə insan homoseksualların Bakıya toplaşması»na etirazlarını bildiriblər. Onlar üzərinə «İsrailə ölüm!», «Hicab bizim fəxrimizdir!» yazılmış və Azərbaycan prezidenti İlham Əliyevi «sionist» adlandıran şüarlar da qaldırıblar.**

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) İranın bəzi din xadimlərinin çağırışlarından və Təbrizdəki Azərbaycan konsulluğu qarşısında keçirilən aksiyada səslənən fikirlərdən narahat olub. QMİnin Elmi-Dini Şurası mayın 11-də bəyanat yayaraq bu narahatlığını bildirib: «Biz, Azərbaycan dövlətinin adına olmazın həqarətlər yağdırılmasını, onun dövlət atributlarının təhqirini, Prezidentin ünvanına qonşu İran dövlətinin bəzi din xadimlərinin təhqiramiz ifadələr işlətməsini heç bir vəchlə qəbul etmirik. Bunu daxili işlərimizə müdaxilə hesab edirik. Bu təxribatların əsl məqsədi heç də qələmə verildiyi kimi dini təəssübkeşlik, İslami həmrəylik, qardaşlıq nümayişi və ya xalqımızın guya heysiyyətinin qayğısına qalınması deyil. İslam adından sui-istifadə edərək sabitliyimizə xələl gətirmək və cəmiyyət daxilində qarşıdurma yaratmaqdır».

Sənəddə bildirilir ki, prezident Azərbaycan ərazisindən İrana qarşı hər hansı təcavüzə imkan verilməyəcəyini bəyan edəndən sonra bu növ aksiyaya yol verilməməliydi: «Azərbaycan dövlətinin və cəmiyyətinin qəbul etmədiyi gey-parad və buna bənzər məsələlərin olacaq kimi qələmə verilməsi, ölkə əleyhinə aramsız təhdidlər səsləndirilməsi qərəz və məkrdən başqa bir şey deyil».

**«DƏSTƏYİ HİSS ETMİRİK»**

Bəyanatda həmçinin qeyd edilir ki, Azərbaycan ən böyük problemi olan ərazi bütövlüyünün bərpası məsələsində dünya birliyinin ədalətli mövqeyinə, dost və qardaş ölkələrin dəstəyinə ümid bəsləyir:

«Acı reallıq ondan ibarətdir ki, həqiqətən İslami həmrəylik, dini təəssübkeşlik nümayişi tələb olunan zamanlarda bu dəstəyi hiss etməmişik».

***İlqar Rəsul***

# Gənclər İranın Bakıdakı səfirliyi qarşısında aksiya keçirib

*Mayın 11-də yüzdən çox gənc İranın Bakıdakı səfirliyi qarşısında etiraz aksiyası keçirib. Bir neçə gün öncə Təbrizdə Azərbaycan konsulluğu qarşısında «Eurovision»a qarşı mitinq keçirilmişdi. «İrana ar olsun!», «İslam belə olmur», «İran Azərbaycana terrorçu, narkotik və ekstremist göndərir», «İranda 35 milyon azərbaycanlının hüquqları pozulur» və sair şüarlar səsləndiriblər. Onlar əllərində «Şuşanı ermənilərə İran hakimiyyəti satıb», «Homoseksual İran mollalarına Azərbaycanda yer yoxdur» kimi şüarlar yazılmış, eləcə də Əli Xamneyi, Mahmud Əhmədinejat və Serj Sarkisyanın birgə şəkli olan plakatlar tutublar.*



Gənclər Bakı Dövlət Universitetinin tələbələri olduqlarını bildiriblər. Tələbələr deyir ki, onlar İran azərbaycanlılarının hüquqlarının pozulmasına, İranın Azərbaycana qarşı təbliğat aparmasına etiraz edirlər. İran səfirliyinin yerləşdiyi küçəyə maşınların hərəkətini dayandıran polis aksiyaya müdaxilə etməyib.



# Rəsul Quliyevin tərəfdarının evində axtarış aparıldı

*Mayın 11-i saat 19 radələrində Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları Açıq Cəmiyyət Partiyasının fəallarından Əli Rza və anası Şirinbacı Rzayevanın kirayə qaldıqları evdə axtarış aparıblar. Evdən narkotik vasitə tapıldığı bildirilir. Nəticədə Əli Rzanın kiçik qardaşı İlqar Rzayev saxlanıb.*

Bunu AzadlıqRadiosuna Açıq Cəmiyyət Partiyasının sədri Rəsul Quliyevin Azərbaycandakı müşaviri Ağası Şakiroğlu bildirib. O deyib ki, axtarış zamanı polis evdən narkotik vasitə-anaşa tapdığını bildirib: «Axtarışdan sonra polislər iki bağlama narkotik vasitə-anaşa göstərib onları evdən tapdıqlarını bildiriblər. Sonra Əli Rzanın kiçik qardaşı İlqar Rzayevi həbs ediblər. Polislər axtarışın onlara daxil olan məlumat əsasında aparıldığını deyirlər. Amma biz əminik ki, onlar partiyanın keçirdiyi aksiyalara və Əli Rza ilə Şirinbacı Rzayevanın hakimiyyət əleyhinə səsləndirdikləri fikirlərə görə bu addımı atıblar. İlqar Rzayevi də bu yaxınlarda «Vaşinqton Post» qəzetinə məmurları kəskin tənqid edən müsahibə verdiyinə görə saxlayıblar».

Ağası Şakiroğlu deyir ki, Əli Rza «Azərbaycan el hərəkatı»nın sədri, İctimai Palatanın üzvüdür. Evdə axtarış da ailə üzvlərinin siyasi fəaliyyətinə görə aparılıb.

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin bölmə rəisi Orxan Mansurzadə isə deyir ki, Azərbaycanda polis siyasi fəaliyyətinə görə heç kimi təqib etmir. Onun fikrincə, Azərbaycan azad ölkədir və hər kəsin hüququ qorunur. O.Mansurzadə deyir ki, bu hadisəni siyasiləşdirib, polisə öz qanuni işini gördüyü üçün böhtan atmaq düzgün deyil: «Həmin şəxslər də konkret olaraq əməlinə görə-yəni evdən narkotik vasitə müəyyən edilib götürüldüyü üçün məsuliyyətə cəlb olunublar. Yəni bu, konkret cinayət əməlidir. Bu cür faktlar sənədləşdirilir və araşdırma aparılır».

# AXCP gəncləri Bakıya gələcək əcnəbi qonaqlara müraciət edib


Azerbaijan -- London taxi in Baku - 02 May 2012

*Mayın 10-da AXCP Gənclər Komitəsi «Eurovision 2012» mahnı müsabiqəsi zamanı Azərbaycana gələcək əcnəbi jurnalistlərə, diplomatlara və vətəndaşlara müraciət edib. Müraciətdə bildirilir ki, Azərbaycan hakimiyyətinin müsbət imicini qurmaq məqsədi ilə paytaxtda çalışan taksilərə əcnəbi qonaqları, turistləri getmək istədikləri yerlərə mərkəzi yol və küçələrlə aparmaq, kənar küçə və rayonlardakı yollarla aparmamaq tapşırılıb: «Bu tapşırığın nəticəsində sizlər neft ölkəsi Azərbaycanın paytaxtının mərkəzi rayonundan başqa rayonlarda bərbad yolları, kasıb evləri, vətəndaşların üzləşdiyi çoxsaylı problemləri görməyəcəksiniz. Buna görə də biz AXCP Gənclər Komitəsi olaraq sizlərə müraciət edirik: Bakı təkcə abadlaşdırılmış kiçik bir hissədən ibarət deyil. İstəyirik ki, Bakıda olarkən təkcə kosmetik işlər görülmüş şəhərin mərkəzini yox, iqtisadi, sosial, gigiyenik problemlərin həddən artıq çox olduğu şəhərin başqa yerlərində də olasınız və gerçəklikləri görəsiniz».*

Müraciətdə qeyd olunur ki, bu, əcnəbilərə imkan verəcək ki, ifadə azadlığının kobud şəkildə pozulduğu və azad musiqi yarışmasının keçiriləcəyi ölkə haqda tam təsəvvür formalaşdırsın.

**NAZİRLİK TƏKZİB EDİR**

Nəqliyyat Nazirliyi katibliyinin rəhbəri Namiq Həsənov taksi sürücülərinə belə bir göstərişin verilməsi barədə məlumatları təkzib edir: «Bakıda 22 taksi dayanacağı fəaliyyət göstərəcək və bu dayanacaqların hamısında "London taksi"ləri xarici turistlərə xidmət edəcək. Onlar hara istəsə gedə biləcəklər. Bu, mümkünsüz bir məsələdir».

Namiq Həsənova görə, taksilərdən fərqli olaraq avtobuslar konkret sxem üzrə hərəkət edəcəklər: «Rəsmi tədbirlərlə bağlı bu həmişə belə olub və turistlər də həmin avtobuslardan istifadə edə biləcəklər».

***Maarif Çingizoğlu***

# İstiqlalçı deputatlar prezidentə müraciət edir


Müxalifətin "Nərimanov" metrostansiyası yaxınlığındakı aksiyası. Aprel 2011

**İstiqlalçı deputatlar vicdan məhbuslarının həbsdən azad edilməsi ilə bağlı prezident İlham Əliyevə müraciət hazırlayıb. 1991-ci ildə Azərbaycanın müstəqilliyi haqda bəyannaməni imzalayan o vaxtkı deputatların bəziləri - İsa Qəmbər, Sülhəddin Əkbər, İbrahim İbrahimli, İxtiyar Şirin, Hacıbaba Əzimov və başqaları mayın 11-də Müsavat Partiyasının qərargahında bir araya gəliblər.**

«Əhrar» partiyasının sədri Vaqif Hacıbəylinin AzadlıqRadiosuna verdiyi məlumata görə, toplantıda Müsavat Partiyası mərkəzi icra aparatının rəhbəri Arif Hacılı və İctimai Palatanın həbsdə olan digər üzvlərinin məsələsi müzakirə olunub, sonda prezident İlham Əliyevə müraciət ünvanlanıb. Müraciətdə Arif Hacılının da istiqlalçı deputatlardan və demokratik hərəkatın tanınmış simalarından biri olduğu xatırladılır. Ümumilikdə İP üzvlərinin həbsi pislənilən sənəddə onların tezliklə azad olunmaları istənilir.

Ötən ilin aprelində Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmamış aksiyalar zamanı İctimai Palatanın 16 üzvü saxlanılıb. Sonradan məhkəmə qərarı ilə müxtəlif müddətlərə azadlıqdan məhrum ediliblər.

Beynəlxalq təşkilatlar onları vicdan məhbusu kimi tanıyır.



# Rafiq Tağının adı Vaşinqtonda əbədiləşdirilir

*Azərbaycanlı jurnalist və yazıçı Rafiq Tağının adı Vaşinqtondakı Xəbərlər və Jurnalistika Muzeyində xüsusi lövhəyə salınacaq. Orada ötən il öldürülmüş 70 jurnalistin adı əks olunan xüsusi lövhə yaradılıb. Mayın 14-də bu münasibətlə xüsusi mərasim keçiriləcək.*

Xatırladaq ki, ötən il noyabrın 19-u axşam saatlarında işdən evə qayıdan Rafiq Tağıya yaşadığı binanın yaxınlığında naməlum şəxs çoxsaylı bıçaq xəsarətləri yetirib. 4 gün Klinik Tibbi Mərkəzdə müalicə olunan yazıçı noyabrın 23-də oradaca vəfat edib.

# <u>Elnur Aslanov:</u> «İranın Azərbaycanın işlərinə qarışması xoşagələn hal deyil»

**Azərbaycan gəncliyi İrana haqlı olaraq etirazını bildirir. «Trend»in məlumatına görə, bunu jurnalistlərə Azərbaycan Prezidenti Administrasiyasının siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov deyib:**

«İranın Azərbaycanın daxili işlərinə qarışması xoşagələn hal deyil. Azərbaycan özü heç bir dövlətin, ələlxüsus qonşu dövlətin daxili işlərinə qarışmır».

O, qeyd edib ki, Azərbaycan bütün dünya subyektləri ilə bərabərhüquqlu və əməkdaşlıq çərçivəsində münasibətlər qurulmasının tərəfdarıdır:«Bu baxımdan, gənclərin keçirdiyi aksiya İranın bəzi dairələrinin ortaya atdığı fikirlərə reaksiyası idi».

# Hacıbala Abutalıbov: "Bakıda güllər insanların sayından çox olacaq"

## Gül bayramı, Qış Bulvarı, sökülən evlər, ödənilən pullar və "Azinko"dan verilən evlər haqqında


Arxiv foto

**Mayın 10-da Gül bayramı keçirilən parkda Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov da iştirak edirdi. Öz nəvəsi ilə gəlmişdi. Jurnalistlərlə həvəslə danışırdı. Ətrafdakı bayram hazırlıqlarını göstərib fərəhlə sözə başladı:**

- Hər yan yaşıllaşacaq, Bakıda güllər insanların sayından çox olacaq. Ona görə edirik ki, qoy xaricdən gələn qonaqlar bilsinlər – burda yaxşıya yaxşı kimi baxırlar, pisdə də yaxşı axtarırlar. Çünki Azərbaycanımızda yaşayanlar yalnız mələkdir. Bu mələklər diyarına xoş gəlmisiniz, qonaqlar! Gəlin, gəzin, görün belə gözəl Bakımız necə gözəldir.

**- Hacıbala müəllim, builki Gül bayramı ötən ildə keçiriləndən nə ilə fərqlənir?**

- Mənə elə gəlir ki, siz bunu özünüz görməli idiniz. Keçən il müxtəlif ölkələrdən 26 ton gül gətirilmişdi. Keçən il yalnız bizim dizaynerlər işləmişdi. Bu il 116 ton Almaniya, Fransa, İtaliya, Hollandiya, Braziliya və başqa ölkələrdən gətiriləndir. Həm də həmin ölkələrin dizaynerləri də burda iştirak edib. Və beləliklə, dizaynerlərimiz elə etdi ki... Heydər Əliyevmizə məhəbbət yaratdıq ki, bu cür gözəl Gül bayramını, gül kompozisiyasını yarada bilsinlər. Bax, budur fərq.

İkinci fərqi budur ki, keçənilkinə nisbətən builki - böyük bir qayığın üzərində Heydər Əliyevimiz hərəkət edir. Parusdur.. (Yelkən - V.Ə.) Heydər Əliyevmizin güldən bəzədilmiş portreti keçən ilə nisbətən 3 dəfə böyükdür. Həm də bizə baxıb gülür...və əmin olun, mən deyirəm, Heydər Əliyevmizin ruhu bu saat yanımızdadır, sevinir. Bu isə mənim üçün ən böyük şərəfdir!

**- Parkdakı kompozisiyalar neçə müddətdə hazırlanıb?**

- 1 aydır ki, hazırlayırıq. Amma keçən il sentyabrın 1-dən bu gözəl bayrama hazırlaşırıq. Gələn il isə Heydər Əliyevmizin 90 illiyidir. Gül bayramı təkcə bu parkda olmayacaq. Həmçinin Heydər Əliyevmizin sarayının arxasında bu parkdan 3 dəfə böyük park salınacaq. Gələn ilin mayın 10-da o park da açılacaq və Gül bayramı bundan daha da möhtəşəm olacaq. 90 illiyimizə elə bu gündən hazırlaşırıq. Əmin olun, Azərbaycan xalqı nə qədər xoşbəxt olacaqsa, Heydər Əliyevmizin ruhu bir o qədər də şad olacaq. Gəlin hər birimiz Heydər Əliyevmizin məhəbbətini ürəyimizdə yaşadaq. Elə yaşadaq ki, o dünyaya gedəndə Heydər Əliyevmiz bizi qəbul edə bilsin.

**- Heydər Əliyevin 90 illiyinə qədər hazır olacaqmı Qış Bulvarı?**

- Yox, Qış Bulvarı yoxdur. Gözəl musiqili fontanlar olan dünyanın ən gözəl bir parkı açılacaq.

**- Bəs sənədlərdə adı "Qış Bulvarı" kimi təqdim olunur?**

- Sənəd Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamıdır. Orda isə yazılıb: "gözəl istirahət parkı".

**- Amma Sizin imzanızla olan sərəncam var ki, orda həmin ərazi "Qış Bulvarı" kimi təqdim edilib. Ola bilər ki, dəyişilib adı?**

- Yox. Gözəl istirahət bağ-park kompleksi olacaq. Aşağısında isə ikimərtəbəli, gözəl avtodayanacaq olacaq. Ora 4500 maşın yerləşəcək.

**- Söküntülər davam edir, Şəmsi Bədəlbəyli, Mirzağa Əliyev küçələrinin arasındakı ərazi də həmin parka aid olacaq?**

- Əlbəttə! Bu park böyük bir parkdır. Bu park 7,5 hektar ərazini tutur. Əmin olun, bir neçə il keçəcək, bu birmərtəbəli, demək olar ki, çox acınacaqlı evlər hamısı sökülləcək. İnsanlarımıza hər kvadratmetrinə 1500 manat və ya təmir olunmuş mənzillər təqdim olunacaq. Əmin ola bilərsiz.

**- 1500 manatdan narazı olan insanlar da var...**

- Sözsüz ki, 1500 manatdan narazı olan insanlara onların yaşadığı mənzillərin üzərinə 20 faiz əlavə sahə gəlməklə, yeni, təmir edilmiş mənzil verə bilərik.

**- Mənzillər harda verilir?**

- Bakı şəhərində..

**- Hansı binalarda?**

- Yeni mənzillər. Bu saat yeni mənzillər tikilir. Baxın, hər tərəfdə yeni mənzillərimiz var. Amma biri deyir ki, dəniz kənarında olmalıdır, biri deyir ki Heydər Əliyevmizin parkının yanında olmalıdır. Bir şeyi başa düşmək lazımdır, Bakının hər bir nöqtəsi mənə əzizdir, bakılılarımıza əzizdir.

**- Siz mənzilləri harda təklif edirsiz?**

- Biz hər yerdə təklif edirik. Bax, Yasamalda, Səbaildə, Xətaidə, Nizami rayonunda təklif edirik. Yəni var, amma bilirsiz də, çox verəndə, daha çox istəyirik.

**- Sakinlərin dediklərinə görə, mənzillər daha çox "AZİNKO"nun tikdiyi binalarda verilir..**

- Yox, elə deyil...mən yenə deyirəm, çoxu burda yeni binalarda mənzil almaq istəmirlər. Deyirlər ki, pulu verin bizə, elə qonşu küçədə, məsələn, Vidadi küçəsi, kvadratmetri 700 manat olan ev var, onu alaq. Veririk, əlavə pul veririk. Burda problemimiz yoxdur. Amma 1500 manat təmiz verilir – bura notarius, vergi pulu, Əmlak Komitəsindən 1 nömrəli arayışın alınması daxil deyil. O pullar Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təmiz verilir.

**- Sakinlər deyir ki, onlara məhz "AZİNKO"nun tikdiyi binalarda mənzil verilir. "AZİNKO" necə oldu ki seçildi, Hacıbala müəllim?**

- Tək "AZİNKO"nun binasından verilmir. Sahibkarlar (yeni binaların - V.Ə.) – kim ki BŞİH-ə müraciət edib, ən çox kvadratmetri 700 manatdan olan binaları götürürük. Ora vergini gəlirik, bir də təmir pulunu. Biz 1500 manatı təmiz ödəyirik.

**- İnsanlar deyir ki, "AZİNKO" nun tikdiyi binalara məcburi köçürülüblər?**

**Müsahibənin davamını AzadliqRadiosu.az saytından oxuyun.**

***Vüsalə Əlibəyli***

# «Anamı öldürən azadlıqda gəzir»


Arxiv foto

**Şamil Babanlı AzadlıqRadiosunun «Qaynar Xətt»inə şikayət edib ki, avtomobil qəzası törətmək nəticəsində anasının ölümünə səbəb olmuş Musa Nayıbov adlı şəxs yüngül cəzalandırılıb. Məhkəmə hökmü ilə Musa Nayıbov cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkməklə 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Ancaq cəza faktiki icra olunmur.**

**MƏHKUM AZADLIQDA?**

Şamil Babanlı: «Mən dəfələrlə yoxlatdırmışam, o adam məntəqə tipli cəzaçəkmə müəssisəsində qalmır. Orda yalnız bircə dəfə olub. Ondan sonra hər ay pul ödəyərək azadlıqda gəzir. Mən başa düşmürəm, insan ölümünə səbəb olan adam necə azadlıqda gəzə bilər? Hələ mən onun ailəmizə vurduğu mənəvi zərbəni demirəm. Atam o qədər istintaq orqanlarına gedib gəldi, əsəbiləşdi ki, axırda ürəyi partladı. Yəni o adam iki nəfərin ölümünə səbəb olub. O adam o zaman məntəqə tipli müəssisəyə göndərilə bilərdi ki, qəza nəticəsində ölüm-itim olmayaydı. Belə bir cinayətkar necə azadlıqda gəzə bilər? Bu, bizim ailəni ələ salmaqdır».

Qeyd edək ki, Musa Nayıbov məhkəmədə bildirib ki, avtomobili sürücülük vəsiqəsi olmadan idarə edib. O, Sumqayıt şəhərinin mərkəzi küçələrindən birində ehtiyatsızlıq nəticəsində avtomobillə Gülayət Babanlını vurduğunu və piyadanın ölümünə səbəb olduğunu etiraf edib. Məhkəmə onu cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkməklə 4 il 6 ay müddətinə azadlıqdan məhrum edib.

Ancaq Şamil Babanlı Musa Nayıbova verilmiş cəzayla razılaşmayaraq hökmdən apelyasiya şikayəti verib. Şikayət təmin olunmayıb. Şamil Babanlı Ali Məhkəməyə kasasiya şikayəti verib. Onunla yanaşı prokuror da Musa Nayıbovun cəzasının artırılması üçün Ali Məhkəməyə kasasiya protesti göndərib.

**ÜMİD ALİ MƏHKƏMƏYƏDİR**

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin mətbuat xidmətinin rəhbəri Mehman Sadıqov "Qaynar Xətt"ə bildirib ki, Şamil Babanlının məhkumun məntəqə tipli cəzaçəkmə müəssisəsindən azadlığa buraxılması ilə bağlı dedikləri ilə razılaşmır: «Bu məsələ araşdırılıb və Şamil Babanlıya Penitensiar Xidmətin rəhbərliyi səviyyəsində də rəsmi cavab verilib. Mümkün deyil ki, cəzaçəkmə müəssisəsində saxlanılan şəxs azadlıqda gəzsin. Ora cəzaçəkmə yeridir və bütün məhkumlar müəssisədə saxlanılır».

İndi Şamil Babanlı anasının ölümünə səbəb olmuş sürücünün cəzasının ağırlaşdırılması ilə bağlı bütün ümidlərini Ali Məhkəmə bağlayıb.

***Esmira Cavadova***

# Bakı sakini: «Neft şirkəti bostanı əlimdən alıb»

**Bakı sakini Cabir Cəfərov AzadlıqRadiosunun «Qaynar Xətt»inə Babək prospekti yaxınlığında yerləşən və 24 ildir ki, əvvəl faktiki istifadəsində, sonradan isə rəsmi icarəsində olan torpaq sahəsinin əlindən çıxmasından şikayətlənib. Deyir, 8 il əvvəl torpaq sahəsində bostan işləri üçün Keşlə bələdiyyəsi ilə müqavilə bağlayıb. Ancaq ərazi elə bərbad vəziyyətdə olub ki, icarə müddətində elə ancaq abadlaşdırma işləri ilə məşğul ola bilib. İndi icarənin müddəti bitib. İcarə müqaviləsinin müddətini uzatmaq üçün yenidən Keşlə bələdiyyəsinə müraciət edəndə, onunla icarə müqaviləsi bağlamağa razılıq verilməyib. Deyiblər ki, ərazi Dövlət Neft Şirkətinindir və artıq icarəyə verilməsi qadağan edilib.**


Cabir Cəfərov

Cabir Cəfərov: « Mən Dövlət Neft Şirkətinə, ora-bura yazdım-pozdum ki, həmin ərazinin abadlaşdırılması üçün ordan min maşından çox daş-kəsək daşımışam, bir o qədər də torpaq tökmüşəm. Uzun illər qarnımdan, əynimdən kəsib oranı abadlaşdırmışam, çünki bələdiyyədən o vaxt mənə söz vermişdilər ki, icarə müddəti bitəndən sonra oranı sənin adına rəsmiləşdirəcəyik. Hər il 320 manat vergi ödəmişəm. İndi isə deyirlər ki, bura sənin deyil. 3 il əvvəl orda iki otaq tikdim ki, uşaqlarımı yığım içərisinə. Gəlib sökdülər ki, olmaz. Halbuki Neft Şirkətinin boruları mənim tikdiyim evdən 35 metr aralıdadır».

Cabir Cəfərov deyir ki, ona ərazinin neft torpaqları olduğu bildirilsə də, yaxınlıqdakı neft borularının üstünü torpaqlayıb hasar çəkirlər:

«Mənim tikdiyim evlə həmin boruların arasındakı tikintilərə dəyib-dolaşan yoxdur. Sökülürsə, qoy, hamısı sökülsün. İndiyə qədər ora çəkdiyim xərclər kompensasiya kimi mənə ödənilsin. Hazırda elə Dövlət Neft Şirkəti özü həmin boruların üstünü torpaqlayıb orda obyekt tikir».

**KOMPENSASİYANI BƏLƏDİYYƏDƏN TƏLƏB ETMƏLİDİR**

Dövlət Neft Şirkətinin hüquq idarəsinin şöbə rəisi Şahin İsmayılov məsələyə belə münasibət bildirdi: «Cabir Cəfərov orda tikinti apararkən dəfələrlə ona bu barədə xəbərdarlıq edilib. Vaxtilə bələdiyyələr vəzifələrindən kənara çıxaraq on minlərlə sakinə neft torpaqlarında ev tikmək üçün torpaq sahəsi ayırıblar. Son illər Dövlət Neft Şirkəti məhkəmələr yolu ilə bu torpaqları geri alır. Cabir Cəfərov kompensasiyanı bələdiyyədən tələb etməlidir. O ki qaldı borular olan ərazilərdə hazırda tikinti işlərinin aparılmasına, bunlar sənaye təyinatlı tikililərdir. Yaşayış, yaxud idarə üçün nəzərdə tutulmayıb».

***Esmira Cavadova***

# Fəzail Ağamalı: "Bu pul nədir ki?!"


Qubad İbadoğlu

**«Azərbaycanda çox böyük vəsaitlər çox mənasız işlərə xərclənir». Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında iqtisadçı ekspert Qubad İbadoğlu Gül bayramı haqda danışarkən deyib: «Mən bayramın ad olaraq, tədbir olaraq keçirilməsinin əleyhinə deyiləm. Bunu ayrı-ayrı xarici ölkələrdə də keçirirlər. Amma bu, həmin ölkələrdə yetişdirilmiş güllərin bir nümayişinə, sərgisinə bənzəyir. Heç bir ölkə xaricdən bahalı güllər və dekorasiyalar alıb öz ölkəsində nümayiş etdirmir».**

Q.İbadoğlu deyir ki, həmin gülləri yerli fermerlərdən almaqla ölkədə bağçılığın, gülçülüyün inkişafına töhfə vermək olardı. Gül bayramına xərclənən pulların 10 milyon manat civarında olduğunu iddia edən ekspert bu pulların daha səmərəli işlərə sərf oluna biləcəyini deyir: «Zaqatalada baş verən zəlzələdə evlər dağılıb, infrastruktur məhv olub və buna cəmi 20 milyon manat vəsait ayrılıb. 2012-ci ildə gənclərin mənzil təminatının yaxşılaşdırılması üçün 20 milyon manat ayrılıb. Amma bir gün ərzində 10 milyon manat küləyə sovrulur».

Q.İbadoğlunun fikrincə, bu vəsaitin xaricdən gül idxalına sərf olunması ilə həm korrupsiya imkanları yaranır, həm də səmərəsiz bir xərcləmə istiqaməti açılır.

**GÜL BAYRAMINA XƏRCLƏNƏN PULLARI HARA SƏRF ETMƏK OLARDI?**

Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı isə deyir ki Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı


Fəzail Ağamalı

xidmətləri ilə müqayisədə onun doğum günündəki bu bayrama xərclənmiş vəsait tutumuna görə heç nədir. Bu pulların səmərəsiz xərclənməsinə münasibət bildirən deputat deyir ki:«Azərbaycan dövləti Azərbaycan xalqının rifahı üçün, müxtəlif layihələr üçün pul xərcləyir. Azərbaycanın maddi imkanları genişdir. Bu cür yanaşmalar ciddi yanaşmalar deyil və bu yanaşmaların arxasında ciddi insan düşüncələri dayanmır».

**Verilişi tam olaraq AzadliqRadiosu.az-da dinləyin.**

***Kamran Mahmudov, Araz Bayramov***

# Şamaxıda 22 nəfər xilas edilib

*Şamaxıda sel sularında batmaq təhlükəsi ilə üzləşmiş 22 nəfər xilas edilib. Bu barədə Fövqəladə Hallar Nazirliyinin rəsmi saytı məlumat yayıb. Nazirlik bildirir ki, Şamaxı rayonu, Bağırlı kəndi yaxınlığında yağış və sel sularının intensivləşməsi nəticəsində avtomobillərin və sərnişinlərin köməksiz vəziyyətdə yolda qalması barədə məlumat daxil olub. Hadisə yerinə cəlb olunmuş xilasedicilər 22 nəfəri xilas edərək təhlükəsiz əraziyə təxliyə ediblər. Şamaxıda mayın 6-dan yağan leysan yağışları nəticəsində bir nəfər həlak olub. Şamaxı icra başçısının müavini Qasım Qasımov AzadlıqRadiosuna bildirib ki, 22 yaşlı Ovculu kənd sakini Bilal Alməmmədov sel sularının qurbanı olub. Onun sözlərinə görə, malqara tələfatı, əkin sahələrinə ziyanla bağlı hələlik əllərində konkret məlumatlar yoxdur.*

**Səadət Akifqızı**

# «Facebook» haqqında sənin və onun bildikləri




**Mayın 11-də AzadlıqFM-in** studiyasına gələn blogger Əli Novruzov 1 saat ərzində **AzadlıqRadiosu** dinləyicilərinin və **«Facebook»** əhlinin sosial mediaların istifadəsi haqda suallarına cavab verib. Facebookda spam problemin var - divarını bağla. *Necə? Timelinı köhnə Facebook görüntüsünə dəyişmək olmaz. Niyə?* Bu və digər suallara cavab tapmaq üçün verilişi **AzadliqRadiiosu.az** saytında dinləyin.

**Azadliq FM** hər həftənin cümə günü **saat 14:00-da** canlı dinləyin, social şəbəkələrdə baş verənlərdən xəbər tutun, siz də müzakirələrə qatılın.

# Anaların vəziyyəti: Azərbaycan 61-cidir

*Beynəlxalq «Save the Children» təşkilatı dünyada anaların vəziyyəti haqda illik hesabatını dərc edib. Hesabat müəllifləri 165 ölkədə anaların vəziyyətini araşdırıb. Təşkilat anaların vəziyyətini müəyyən edərkən bir neçə faktoru, o cümlədən onların səhhətini, təhsilini, iqtisadi durumunu və qidalanmasını nəzərdən keçirib. Ölkələr üç qrupa bölünüb: birinci qrupda inkişaf etmiş, ikinci qrupda inkişaf etməkdə olan, üçüncü qrupda isə inkişaf etməmiş ölkələr yer alıb. Azərbaycan inkişaf etməkdə olan ölkələr qrupundadır. Siyahıda 61-ci olan Azərbaycan Honduras (60) və Tacikistan (62) arasında qərarlaşıb. Ermənistan 30-cu, Gürcüstan isə 42-ci yerdədir.*

Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu deyir ki, Azərbaycanda anaların vəziyyəti çətin olsa da, kritik deyil: « Qadınların vəziyyətinin ağır olması ilə razıyam. Ancaq Azərbaycanı Hondurasla bir sıraya qoymaq düzgün deyil».

Hesabata əsasən, analar üçün ən yaxşı yer Norveçdir. İslandiya 2-ci, İsveç 3-cü, Yeni Zelandiya 4-cü, Danimarka isə 5-ci yerdədir. Niger analar üçün ən pis ölkə sayılır. Ərzaq qıtlığı ölkəni siyahıda Əfqanıstandan da geriyə atıb. Halbuki Əfqanıstan 2 il ardıcıl olaraq sonuncu yeri tuturdu. Bu il isə bir addım irəliləyib.

# Gallup: в Азербайджане высокий уровень бизнес-коррупции



*Большая часть населения Азербайджана - 65% - считает, что коррупция в бизнес-среде страны широко распространена. Таковы результата опроса международного агентства Gallup. По его результатам, в целом, около 2/3 населения по всему миру считают, что бизнес-коррупция широко распространена в их странах.*

При всем, что проблема воспринимается достаточно остро, независимо от уровня развития страны, в странах с низким уровнем доходов эта цифра, в среднем, выше, чем в странах с высоким уровнем доходов. К тому же, отрицательный эффект коррупции в развивающихся странах усиливается ее негативным влиянием на финансовое развитие, иностранные инвестиции и неравномерное распределение доходов.

В тройку стран, где население считает местный бизнес наиболее коррумпированным, входят Хорватия (93%), Португалия (91%) и Румыния (91%). Наименее коррумпированной свою бизнес-среду считают жители Сингапура (13%), Руанды (15%) и Дании (21%). Среди других стран Южного Кавказа показатели следующие: Армения - 76%, Грузия - 28%.

Грузия является одним из лидеров (наименее бизнес-коррумпированных с точки зрения собственного населения) по этому показателю не только в регионе, но и в мире, занимая в общем списке 8-ю строчку.

# Ракетный щит от иранской угрозы

*США провели успешное испытание усовершенствованной ракеты-перехватчика, которая, согласно планам НАТО, может стать частью антиракетных комплексов, дислоцированных в Румынии.*

Ракета Block 1B из семейства SM-3 успешно поразила в небе над Гавайскими островами макет ракеты ближнего радиуса действия. Пуск ракеты произошел с американского крейсера. Все системы сработали штатно. Об этом сообщило Агентство противоракетной обороны Пентагона. Первые испытания этой ракеты в сентябре прошлого года были неудачными.

Значение этого испытания ракеты-перехватчика комментирует Рики Эллисон, глава частной некоммерческой организации Альянс в поддержку противоракетной обороны:

– Это ракета нового поколения. Она обладает лучшими характеристиками для нейтрализации более широкого диапазона ракетных угроз. У нее лучшие полетные, распознавательные и поражающие свойства. Она удовлетворяет требованиям Европейского театра военных действий. Ракеты такого типа предполагается разместить на территории Румынии, а также на американских кораблях в Средиземноморье для защиты европейских стран и стран НАТО от баллистических ракет Ирана, которые будут более совершенны, чем одноступенчатые ракеты с небольшим радиусом действия типа СКАД.

– Российское руководство утверждает, что программа европейской ПРО может быть со временем модифицирована и будет способна ослабить ракетно-ядерный потенциал России. Российские военачальники недавно пытались доказать это с помощью компьютерного моделирования. Как бы вы ответили на это?

– Ни радиус действия, ни скорость, ни районы размещения испытываемых сейчас американских ракет-перехватчиков не дают им возможность уничтожить какую-либо российскую баллистическую ракету стратегического назначения. У следующей перспективной разработки, ракеты SM-3 Block 2B, которая предназначена для размещения в Польше, появится способность поражать более быстрые ракеты, но она будет также предназначена для перехвата ракет из Ирана. Теоретически она сможет перехватывать российские баллистические ракеты, которые могут быть запущены в сторону Европы, но не те, что в сторону США, поскольку ее скоростные характеристики не позволят ей совершить хвостовую атаку.



***Аллан Давыдов***

# В Турции арестованы 11 генералов

***ВТурции арестованы несколько генералов, которых обвиняют в организации военного переворота в феврале 1997 года. Арестованы 11 действующих и отставных генералов армии, в том числе действующий маршал авиации и несколько генерал-майоров.***

Представитель судебных властей сообщил: "Первые задержания по этому делу были произведены в апреле. Тогда были арестованы более 30 человек - бывшие члены Генштаба и другие военные чиновники. Переворот 28 февраля 1997 года прошел бескровно, но негативно отразился на экономическом развитии Турции. За это военные должны ответить".

Судебный процесс по делу военных, дела которых ранее могли разбирать только военные трибуналы, стал возможен после того, как власти внесли поправки в действующую Конституцию.

Сейчас в Турции проходит еще один суд по делу организаторов военного переворота 1980 года, в ходе которого были казнены, отправлены в тюрьмы и пропали без вести сотни людей.

***Елена Солнцева***

# Avropa Yayım Birliyi: «Məsələnin siyasiləşdirilməsi «Eurovision»u məhv edər»



Ingrid Deltenre

**Ingrid Deltenre Avropa Yayımçılar Birliyinin (European Broadcasting Union) rəhbəridir. Almaniyanın məşhur SPİEGEL dərgisinin internet versiyasında dərc olunan müsahibəsində xanım Deltenre "Eurovision" mahnı müsabiqəsinin Azərbaycanda keçirilməsini müdafiə edir. Xəbərdarlıq edir ki, məsələnin siyasiləşdirilməsi müsabiqənin məhvinə səbəb ola bilər.**

SPİEGEL ONLİNE`dakı müsahibənin ingilis dilindən tərcüməsini təqdim edirik.

*- Xanım Deltenre, 2010-cu ildə "Eurovision"un təşkilatçısı olan Avropa Yayımçılar Birliyinin Baş Assambleyası Azərbaycanda jurnalistlərin qorxudulmasını, onların həbslərini pislədi və hakimiyyəti belə hallara qarşı tədbir görməyə çağıran qətnamə qəbul etdı. Ötən 2 il ərzində həmin tələlər yerinə yetirildimi?*

- Əvvəlki kimi, jurnalistlərin qorxudulması hələ də var, bu da onu gösətrir ki, məsələnin həllinə aparan yol hələ çox uzundur.

*- Sizin bəyanatın, ümumiyyətlə, hansısa təsiri oldumu?*

- Müsbət təsiri necə ölçəsən? Ötən çərşənbə günü biz burada, Cenevrədə Azərbaycanda media azadlığına həsr olunan konfrans keçirdik. Hökumətin konfransda iştirakı və prezidentin müşaviri Əli Həsənovla təmsil olunması, onun Azərbaycan və beynəlxalq qeyri-hökumət təşkilatları ilə bir masa arxasında oturub istənilən tənqidi mövzunun müzakirəsinə razılaşması göstərdi ki, açıq dialoqa olan güclü bir iradə var. Dialoq isə həmişə düzgün istiqamətdə atılan ilk addımdır.

*- Tərəflərin məsələyə fərqli baxışları var. Məsələn, "Human Rights Watch" deyir ki, siz hökumətə tribuna təklif etmisiz. İddia edir ki, Beynəlxalq Yayımçılar Birliyi "Azərbaycanda media azadlığının pisləşən vəziyyətini dəqiq, aydın və açıq şəkildə" dilə gətirməyib və bununla da özünün həmin prinsiplərə olan öhdəliklərini sual altına qoyub. Azərbaycanlı insan haqları fəalı Rəsul Cəfərovun sözlərinə görə isə, onda elə bir hiss var ki, Avropa Yayımçılar Birliyi rəsmi Bakıya işləyir.*

- Məncə, anlaşılmaz fikirdir. Mənim aləmimdə hökumətin tədbirdə iştirakı hadisəni tamamilə başqa nüfuz və etimad səviyyəsinə qaldırırdı. Nəticədə hökumət dedi ki, tənqidi jurnalist Xədicə İsmayılovaya qarşı olan qarayaxma kampaniyasını "ayıb" sayır, rəsmilər bu məsələni aydınlaşdırmaq üçün əldən gələni edirlər. Bundan başqa, yerli yayımçı olan İctimai TV-nin fəaliyyəti ilə bağlı biz çox konkret tədbirlər haqda razılıq əldə etdik, məsələn, proqramlarda fikir müxtəlifliyinin necə artırılmasını göstərmək üçün seminarlar təşkil edəcəyik.

*- "Eurovision"ın televiziya direktoru Jørgen Franck deyir ki, «biz daha yaxşı və demokratik hüquqlar uğrunda dəyişiklik istəyirik. Buna görə də biz Avropa uğrunda savaşırıq. Ancaq biz prosesdə fəal iştirak etmirik, qoy bunu başqaları etsin». Bunu izah edə bilərsiniz?*

- Franck mahnı müsabiqəsi üçün məsuliyyət daşıyır. O, «Eurovision» mahnı müsabiqəsi (EMM) barədə danışır. Bu, köhnə ənənəli bir tədbirdir və aydın qaydaları var: Kim qalib gəlsə, gələn ilin tədbiri orada keçirilir. Nə qədər ki, buradayam, bu qayda dəyişməyəcək. EMM siyasiləşsə, bəzi üzvlərlə ikinci dərəcəli vətəndaşlar kimi davransaq və onlara desək ki, tədbirə ev sahibliyi edə bilməzlər, çünki onların ölkəsində çalınan musiqi bizim standartlara uyğun gəlmir, EMM məhv olar. Bu tədbir körpülər yaradır. Ancaq bu o demək deyil ki, bir qurum kimi bizim işlək demokratiya – xüsusilə də müstəqil və rəngarəng media barədə aydın fikirlərimiz yoxdur.

*- AYB bu günlərdə qeyd edib ki, müsabiqə hətta 1969-cu ildə Franco-nun hakimiyyəti altında olan İspaniyada da keçirilib. Bilərəkdən vermək istədiyiniz mesaj nədir, EMM yaxınlaşmaqdan da qorxmur?*

- EMM televiziya tədbiridir, xalqları yaxınlaşdırır, heç kəsi istisna etmir. Bu, birləşdirici tədbirdir, ayırıcı deyil.

*- AYB Azərbaycan hökumətindən zəmanət alıb ki, müsabiqə vaxtı İnsan Haqları Konvensiyasına hörmət ediləcək, bütün iştirakçılar və müxbirlərin azadlığı və təhlükəsizliyi təmin olunacaq. Bu, ironik addım deyilmi? Qanuna hörmət qoyulmayan bir ölkədə qanunun süni mini aliliyini yaratmaq deyilmi?*

- Bu, həqiqət olsaydı, tənqidi başa düşərdim. Avropa Şurasının üzvü olan Azərbaycan (bu insan haqları qurumunun 47 üzvü var və onlar Avropa İnsan Haqları Məhkəməsinin qərarlarına hörmət etməyə borcludurlar) Avropa İnsan Haqları Konvensiyasını imzalayıb, bu sənəd bütün ölkəni əhatə edir.

*- Bəs onda nəyə görə xüsusi bir təminat üçün müraciət edirsiz?*

- Mən 9 milyonluq əhalisi olan bir ölkə üçün qanuni təhlükəsizlik tələb edə bilmərəm. Mən ancaq xahiş edə bilərəm ki, tədbir təhlükəsiz yerdə keçirilsin. Bir də ki, bütün iştirakçıların təhlükəsizliyi təmin olunsun.

*- Deməli, növbəti bir neçə həftədə Bakıda hökumətə qarşı çıxan etirazçılar həbs olunsa, bunun EMM-ə dəxli olmayacaq, çünki müsabiqə iştirakçısı, yaxud turistlərdən saxlanan olmayıb?*

- Məncə, qanuna əməl edənlərə dinc aksiya keçirməyə icazə veriləcək.

*- Rejim tənqidçilərinin paralel olaraq təşkil etdiyi «Sing for Democracy» («Demokratiya Naminə Oxu») musiqi festivalını dəstəkləyirsinizmi?*

- Heç bir formada. Biz bu məsələdə neytral mövqedəyik.

*- Eyni zamanda EMM Azərbaycan hökumətinin dönə-dönə sözçüsü rolunda çıxış edir, sizin nümayəndələr Bakıdakı təhlükəsizlikdən danışır, yaxud adamları inandırır ki, tədbirin keçiriləcəyi yeni tikilmiş Crystal Hall-ın yaxınlığında evləri sökülən sakinlər lazımi kompensasiya alıblar.*

- Mən bu məsələnin həllinin ədalətli olub-olmadığını bilmirəm, ona görə də şərh verə bilmərəm. Bu məsələni qeyri-hökumət təşkilatları hökumətlə aydınlaşdırmalıdırlar.

***Müsahibəni Stefan Niggemeier aparıb***

# Əcnəbilər Bakıda otel tapa bilmir



JW Marriott Absheron

**7 GECƏYƏ 2000 MANAT**

Azərbaycanda «Eurovision» mahnı müsabiqəsi həftəsində müştəri gözləyən tək-tük otel qalıb. Bakıda əcnəbi qonaqlar üçün nəzərdə tutulmuş otellər artıq dolub. Booking.com saytında Bakının 56 oteli haqqında məlumat yerləşdirilib. Onlardan 14-ü mayın 20-27 tarixlərində boşdur – boş otaqların sayı 1-dən 5-ə qədər göstərilib. Saytda 7 gecəlik yer üçün qiymət ən azı 2 min manat civarındadır. Bakıda otellərin qiymətləri əcnəbilərin ürəyini heç də açmır. İsveç mediasında çalışan Thomas Thoren bir həftə öncə Bakıda ən ucuz otel axtarışıyla gecəsi 70 manatdan aşağı qiymətə olan yer tapmayıb:

**TÜRKİYƏDƏ 25-30 AVROYA, AZƏRBAYCANDA 70 MANATA**

«Otel qiymətləri Bakıda həddən artıq bahadır. Mən tez-tez Türkiyəyə səfər edirəm və heç belə vəziyyətlə rastlaşmamışam. Jurnalist kimi mənim üçün bahalı oteldə qalmaq mümkün deyil. Bir tanışımın köməyi ilə Bakıda gecəsi 70 manata ev tapdım, amma o qədər pul veriləsi yer deyildi. Məsələn, Türkiyədə belə şərtlərlə 25-30 avroya otel tapa bilirəm».

Hazırda Bakıda 100-ə yaxın mehmanxana var. Son bir ildə paytaxtda 6 beşulduzlu otel istifadəyə verilib. «Reuters» agentliyinin yaydığı xəbərə görə, Bakıya «Eurovision» musiqi yarışına can atan hər kəs otel nömrələrinin qiymətlərini görəndə, şoka düşəcək.

**QİYMƏTLƏR 6 DƏFƏ QALXIB?**

Almaniyanın «Swoodoo» turizm bürosunun məlumatına görə, Bakıda elə otellər var ki, qiymətləri 6 dəfə qaldırıblar. Turizm üçün şəraiti məhdud olan ölkədə qiymətlərin bu artımı «Swoodoo» bürosunu təəccübləndirib: «Bakının otel infrastrukturu Qərbi və Şərqi Avropa ölkələri ilə müqayisə oluna bilməz» - «Swoodoo»un təmsilçisi Christian Saller belə deyib. O, bildirib ki, Bakıda otellərdə bir gecəlik orta qiymət mayın 22-27 arası 341 avro olacaq. Halbuki bir neçə həftə əvvəl qiymət 140 avro idi.

OTEL İŞÇİSİ: **QİYMƏTLƏR QALXIB**

Bakıda söhbətləşdiyimiz otel təmsilçilərindən müsabiqəyə görə qiymətləri qaldırdıqlarını deyənlər də oldu, bunu təkzib edənlər də. «Old Gates» otelindən dedilər ki, adi günlərdə 100 manata verilən tək otağın qiyməti mayın 20-27-də 250 manata qalxıb. «Ambassador» oteldən isə bildirdilər ki, müsabiqə həftəsi ən ucuz otaq 250 manatdır. Bu rəqəm müsabiqədən əvvəlki həftə 200 manat olub. «Abu-Arena» oteli isə hər hansı bahalanmadan söhbət getmədiyini deyir.

Ötən ay Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Aydın İsmiyev bildirmişdi ki, nazirlik mahnı müsabiqəsi ilə əlaqədar mehmanxanalara qiymətləri artırmamağı tövsiyə edib: «Mehmanxanalar özəl sektora daxildir. Qiymətlərin qalxıb-qalxmayacağı ilə bağlı heç nə deyə bilməyəcəyəm. «Eurovision» mahnı müsabiqəsi ilə əlaqədar mehmanxanalarda tam hazırlıq işləri görülüb və turistlərin qəbulu üçün də heç bir problem yoxdur».

**NAZİRLİK OTEL OTAQLARINI ALIB**

«İçərişəhər», «Old Gates», «Ambassador» və digər otellərdən AzadlıqRadiosuna bildiriblər ki, əksər yerləri qonaqlarını yerləşdirmək məqsədi ilə Mədəniyyət Nazirliyi alıb.

İqtisadçı ekspert Natiq Cəfərli deyir ki, azad bazar prinsipinə görə, otellərdə bahalaşma normaldır. Ekspertin fikrincə, problem ondadır ki, Azərbaycanda otellər daha çox 3-5 ulduzludur, hər kəsin cibinə uyğun deyil: ««Eurovision»un kontingenti əsasən gənc və tələbələrdən ibarətdir. Qərbi Avropadan yox, əsasən Şərqi Avropadan gəlməsi gözlənilir. Daha kasıb ölkələrdən yəni. Onların «Hilton» da, ya da «Kempinski»də günlüyü 300-500 manat arasında qiymətə qalmağa imkanları olmayacaq. Əsasən kiçik və




Natiq Cəfərli

ucuz otellərin tikilməsinə hədəf qoyulmalıydı və bunu təşviq etməliydi hökumət».

**«5 GECƏYƏ 4 MİN AVRO»**

Elə bu bahalıq üzündən mayın 21-də yarışmanı izləməyə gələcək holland tələbə Mandy Duijn tanışlarının köməyi ilə 4 günlük ev kirayələyəcək: «2 ay əvvəldən axtarmağa başlayanda bronlaşdırmaq olmurdu. 2 həftə əvvəl yenidən axtarmağa başladıq. Bəzi otellər tapdıq, amma həddən artıq baha idi. Biz 4 nəfərik, 3 otaq tutmaq istədik, 5 gecə bizə 4 min avroya başa gəlirdi. Bizim bu qədər pulumuz yoxdur. Bizim üçün bahalı olan ən ucuz otellərdə isə yer tapa bilmədik. Ona görə də ev tapdıq ki, kirayə qalaq. Düzdür, o ev də ucuz deyil, hərəmizə hər gecə üçün 145 avro ödəyəcəyik. Amma oteldənsə, bu, daha ucuzdur».

***Durna Səfərli***

# Azərbaycan polisi gücləndirilmiş iş rejiminə keçdi

**Azərbaycan polisi «Eurovision»la əlaqədar gücləndirilmiş iş rejiminə keçib. Bakının mərkəzi hissələrində, hotel və mehmanxanalar, istirahət mərkəzləri də daxil olmaqla insanların gur toplaşdığı ərazilərdə polis naryadlarının sayı artırılıb, təhlükəsizlik tədbirləri gücləndirilib.**

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov APA-ya bildirib ki, Bakıda keçiriləcək «Eurovision-2012» mahnı müsabiqəsi ilə əlaqədar daxili işlər naziri Ramil Usubovun imzaladığı sərəncamla DİN-in orqan və hissələrinin şəxsi heyəti mayın 10-dan 31-dək gücləndirilmiş iş rejimində çalışacaq.

# Radarların harada olmasından sürücülər xəbər tutacaq


Kamran Əliyev

*Prezidentin mayın 8-də təsdiqlədiyi «Yol hərəkəti haqqında» qanuna edilən əlavə və dəyişikliyə əsasən, yollarda qurulan radarlar barədə əvvəlcədən məlumat verəcək «informasiya stendi» quraşdırılmalıdır. Belə xəbərdarlıq stendləri yaşayış məntəqələrindən kənarda sürət həddini ölçən radardan 150-1000 metr, yaşayış məntəqələrində isə 50-200 metr qabaqda quraşdırılacaq.*

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev AzadlıqRadiosuna deyib ki, yollarda indiyə qədər də əksər radarların yerləşdiyi istiqamətlərdə xəbərdarlıq lövhələri olub. Bu məsələ artıq qanunda tələb kimi qoyulduğundan «informasiya stendlər»i bütün sürət yollarında qurulacaq».

**«DÖVLƏTLİNİ NƏ RADAR TUTUR, NƏ POLİS»**

Sürücülər inanırlar ki, qanundakı dəyişiklik heyvanların üzərində, kolluq və ağaclar arasında radar qurmaq hallarını aradan qaldıracaq. Qaldı ki, radarlara bir-neçə 100 metr qalmış xəbərdarlıq lövhələrin quraşdırılmasına, sürücülər bu məsələdə bir qədər fərqli mövqedədirlər:


Arxiv foto

- «Bu, çox yaxşıdır. Amma nədənsə qanunlar hamısı kasıblara şamil olunur. Dövlətlini nə radar tutur, nə polis. Tutanda da ki, qorxularından onları heç kim çağırmır. Hər qanuna əməl etsəydilər, dünya çoxdan abad olardı».

– «Bu, yaxşıdır. Qabaqda bəlkə maneə var. Xəbərdarlıq edilsə, yaxşıdır. Prezident fərman verdiyi üçün, məncə, buna hamı əməl edəcək».

– «Bu, biz sürücülər üçün yaxşıdır. Əvvəllər bilmirdin qabaqda səni nə gözləyir. Hər kolun, ağacın dibindən birdən çıxırdılar və yaxalanırdıq. Heç olmasa, az da olsa bunun bizə xeyri olar yəqin».

**YAXŞI AT ŞƏKLİ ÇƏKMİSƏNSƏ...**

Hüquqşünas Ərşad Hüseynov isə deyir ki, qanunlara sürücülərdən tutmuş nazirlərə qədər hamı eyni cür riayət etsə, radar və ya hansısa cihazlara ehtiyac qalmaz: « Üzeyir Hacıbəyli bir felyetonunda yazır ki, sən yaxşı at şəkli çəkmisənsə, altına yazma ki, bu, atdır. Bunu görən biləcək ki, bu, at şəklidir. Bu baxımdan, radarlar barədə əvvəlcədən


Ərşad Hüseynov

xəbər verilməsi ilə bağlı ideyanı bəyənmirəm. Çünki sürücü qanuna radara, polisə görə yox, elə qanuna görə əməl etməlidir. Bilməlidir ki, harada olursa-olsun, sürət həddini aşmaq olmaz».

Ərşad Hüseynov onu da deyir ki, Azərbaycanda nəqliyyat problemi təkcə yollarda radarlar və onlar barədə məlumat verən lövhələrin quraşdırılması ilə bitmir. Elə qaydalar var ki, onları elə rəsmi qurumlar, şəxslər pozur. Hüquqşünas hesab edir ki, bu kimi hallar aradan qaldırılsa, «Yol hərəkəti haqqında» qanuna hamı istisnasız əməl edər.

**«SÜRƏTLƏ BAĞLI QƏZALAR 45 FAİZDƏN 25 FAİZƏ DÜŞÜB»**

Yol polisi rəsmisi Kamran Əliyev isə düşünür ki, kimin hansı fikirdə olmasından asılı olmayaraq, radarlar sürücülərin təhlükəsizliyini təmin edir. O deyir ki, əvvəllər qəzaların 45 faizi sürət həddinin aşılması nəticəsində baş verirdisə, radarların tətbiqindən sonra bu rəqəm 25 faizə düşüb.

***Maarif Çingizoğlu***



# Əli Əhmədov: «Müxalifət mitinqlərlə sabitliyi pozmaq istəyir»

*«Müxalifət hər bazar mitinq keçirməklə çox istəyir ki, Azərbaycanda sabitlik pozulsun, ara qarışsın və xoşagəlməz proseslər baş versin, bundan faydalanıb nəyəsə nail olsun». Bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) icra katibi, deputat Əli Əhmədov mayın 10-da Fəxri xiyabanda AzadlıqRadiosuna açıqlamasında deyib.*

YAP-ın icra katibi bildirib ki, onlar kiminsə mitinq keçirməsinin əleyhinə deyillər. Sərbəst toplaşmaq azadlığı məsələsinin Konstitusiyada təsbit olunduğunu deyən Əli Əhmədova görə, istənilən şəxs bu hüquqdan istifadə edə bilər: «Amma mitinq keçirənlərdən soruşmaq lazımdır ki, nə qədər mitinq edəcəklər? Hər həftənin bazar günü mitinq eləməklə nəyəsə nail olmaq mümkündürmü? Bu, mümkün deyil. İnsanlar beziblər. Nə qədər mitinq etmək olar?».

Əli Əhmədova görə, müxalifət bir-neçə dəfə mitinq edib, sözünü deyib və cəmiyyət də onların nəyə etiraz etdiyini eşidib: «Mitinqin mənası odur ki, insanlar nədənsə, lap tutaq ki, hakimiyyətin siyasətindən narazıdırlar, bunun üçün bir-iki dəfə mitinq keçirib öz mövqelərini bildirirlər. Bundan sonra artıq cəmiyyət özü qərar verir ki, o, mitinq keçirənlərin mövqeyini dəstəkləyir, ya yox».

YAP icra katibi hesab edir ki, hər həftənin bazar günü mitinq keçirməklə siyasi partiya nəyəsə nail ola bilməz: «Bu, həddindən artıq ucuz siyasi taktikadır».

İctimai Palatada birləşən müxalifət aprel ayında iki dəfə razılaşdırılmış mitinq keçirib. Mayın 7-də isə Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında icazəsiz aksiya keçirib. Polis aksiyaçıların qarşısını kəsib, bir neçə nəfəri saxlayıb. İctimai Palata yenidən mayın 13-ü və 19-u etiraz aksiyaları keçirmək qərarına gəlib.

***Maarif Çingizoğlu***

# «Qaynar Xətt»dən hüquqşünas məsləhəti al

**AzadlıqRadiosunun** efirində hər **şənbə saat 18-də «Qaynar Xətt»** verilişi başlayır. Burada sizin suallara hüquqşünaslar cavab verir. **5 may 2012-ci il** verilişində səslənən sualların bəzilərini və onların cavablarını sizə təqdim edirik. Sualları hüquqşünaslar Vamiq Şükürov və Elçin Namazov cavablandırıb.




**EVİ NECƏ TİKİM?**

***<u>Xırdalandan Famil:</u> Mənim Xırdalanda 1,5 sot həyətim var. Orada ev tikmək üçün haralara müraciət etməliyəm və nə qədər pul verməliyəm?***

<u>Cavab:</u> Əgər vətəndaş torpaq sahəsini bələdiyyədən, yaxud fərdi vətəndaşdan almaqla Daşınmaz Əmlakın Dövlət Reyestrində rəsmiləşdirməyibsə, öz adına çıxarış almayıbsa, orda fərdi yaşayış sahəsi tikə bilməz. İkincisi, evin layihəsini çəkməlidir, layihəni icra hakimiyyəti də çəkə bilər, yaxud da bu sahədə xidmət göstərən təşkilatlara müraciət edə bilər. Bu, bazar qiyməti ilə müəyyən olunur. Bakı şəhəri ərazisində bunun təqribi qiyməti 200-300 manatdır. Sonra layihə ekspertizadan keçməlidir, əgər o 12 metr hündürlüyünə qədər ev tikəcəksə, bunu müvafiq icra hakimiyyətinin tərkibində yaradılmış ekspert qrupu ekspertizadan keçirir. Əgər 12 metrdən hündürdürsə, Fövqəladə Hallar Nazirliyi ekspertizadan keçirir. Ekspertizadan keçirilməsi üçün pul ödənişi yoxdur. Tikintiyə icazə alınması üçün ev 12 metrə qədər tikiləcəksə, torpaq sahəsinin yerləşdiyi icra hakimiyyətindən, 12 metrdən hündür tikiləcəksə Fövqəladə Hallar Nazirliyindən icazə alınmalıdır. Buna görə qanunla rüsum müəyyənləşdirilməyib. Sonra kommunikasiya xətləri çəkilməsi üçün müvafiq idarələrdən icazə alınmalıdır. Bunlara görə ümumilikdə 30-40 manat civarında pul ödənilir. Ünvanı Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin ərazi idarələri verir. Ünvan 3 iş günü müddətində verilir. Ünvanın təyin edilməsi ilə bağlı 20 manat dövlət rüsumu ödənilir.

**POÇTLA ALDIQDA...**

***<u>Bakıdan Rəşad:</u> Xaricdən poçtla göndərilən elektronikaya (notebook, telefon və s.) gömrük rüsumu düşürmü? Düşürsə, nə qədər?***

<u>Cavab:</u> Əgər o istehsal, kommersiya məqsədləri üçün gətirilirsə, mütləq rüsum verilməlidir. Əgər vətəndaş onu öz şəxsi istehlakı üçün gətirmək istəyirsə, ümumi dəyəri 200 ABŞ dollarına bərabərdirsə və ya gətirdiyi malın çəkisi 20 kiloqramdan artıq deyilsə, gömrükdən və digər rüsumlardan azaddır. Sadəcə olaraq, poçt xidmətinə görə haqq ödəyəcək. O da xaricdən gələn malın çəkisi 500 qramadəkdirsə 80 qəpikdir, 500 qramdan artıqdırsa 1 manat 40 qəpikdir.

**PENSİYANIN HESABLANMASI**



***<u>Bakıdan Cahangir:</u> Mənim qardaşım 1-ci qrup gözdən əlildir. 45 yaşı var. 10 yaşında 3-cü, 20 yaşında 2-ci, 30 yaşında isə 1-ci qrup əlildir. 6 il iş stajı var. Aldığı pensiya cəmi 169 manatdır. Başqa dost tanışlar isə 200-240 manat pensiya alırlar. Ola bilərmi ki, onun pensiyası düz hesablanmayıb?***

<u>Cavab:</u> Əmək pensiyası üç hissədən ibarətdir : baza hissəsi, sığorta hissəsi və yığım hissəsi. Baza hissəsi hazırda 95 manatdır, yığım hissəsi hələlik Azərbaycanda tətbiq olunmur, sığorta hissəsi şəxsin Dövlət Sosial Müdafiə Fonduna vaxtilə işləyərkən əməkhaqqısından ödədiyi ayırmalar hesabına müəyyənləşdirilir. Bunlar toplanılır, vətəndaşa əlilliyə görə əmək pensiyası təyin olunur. Ola bilsin ki, ona görə o biri vətəndaşların aldıqları pensiyalar yüksəkdir ki, onlar qanuna görə əlavələr almaq hüququna malikdilər. Məsələn, müharibə iştirakçıları olduqda, öhdəsində iki və ya daha artıq uşaqlar olduqda və sair. Ola bilsin ki, bu vətəndaşın belə bir əlavələr almaq hüququ olmadığından digərləri ilə fərqləri yaranır. İkincisi isə, o, Dövlət Sosial Müdafiə Fondunun öz yaşadığı yer üzrə şöbəsinə sorğu verib pensiyasının ətraflı izah olunmasını tələb edə bilər.

**TORPAĞI NECƏ SATIM?**

***<u>Abşerondan:</u> Qanuni sənədi olan torpaq sahəsini necə satmaq olar?***

<u>Cavab:</u> Qanuni sənədi olan torpaq sahəsinin satılması üçün heç bir problem yoxdur. Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətindən forma 1 arayışı almaq lazımdır ki, torpaq sahəsi həbsdə deyil. Bundan başqa, istənilən notarial kontorda və yaxud daşınmaz əmlakın yerləşdiyi rayonun notarial kontorunda alqı-satqı edə bilər. Torpaq alqı-satqısı üçün Bakıda rüsum 110 manatdır, rayonlarda isə 44 manatdır.

**HƏRBİÇİ SUALI**

***<u>Bakıdan Elçin:</u> Mən hərbi təqaüdçüyəm. 19 ildir şəhərcikdə xidməti evdə orderlə yaşayıram. Bilmək istərdim ki, mən ailəmlə yaşadığım 36 kv. metr xidməti evin torpaq haqqını ödəməliyəmmi? Hansı qanuna əsasən?***

<u>Cavab:</u> Vergi Məcəlləsi bu məsələni tamamilə tənzimləyir. Məcəllədə qeyd olunur ki, şəxsin torpaq vergisi ödəyicisi olması üçün tək bir tələb var, o da həmin torpaq sahəsinin şəxsin mülkiyyətində olmasıdır. Hər hansı bir torpaq sahəsi şəxsin mülkiyyətində deyilsə, ümumiyyətlə, vergi verilməməlidir. Məsələnin ikinci tərəfi odur ki, Elçin bəy qeyd edir ki, həmin xidməti evdə yaşayır. Bu da Vergi Məcəlləsinin 207.1.2-ci maddəsi ilə tənzimlənir və qeyd olunur ki, büdcə təşkilatlarının, dövlət hakimiyyəti orqanlarının mülkiyyətində olan torpaqlara görə vergi ödənilmir.

Hər həftənin **şənbə günü saat 18:05-dən 19-00-a qədər "Qaynar Xətt"**ə zəng edin və hüquqşünaslardan cavab alın.
**Telefon:** (012) 436 77 41,
**email:** efir@azadliqradiosu.az ,
**SMS üçün mobil nömrə:** (+99450) 7441017

# Azərbaycanın birinci ledilər

*Azərbaycanda «birinci xanımlar» deyəndə, daha çox indiki prezident İlham Əliyevin həyat yoldaşı Mehriban Əliyeva haqqında danışılır. Müşahidəçilər deyirlər ki, Əliyevaya qədər digər prezidentlərin xanımları bu və ya digər səbəblərdən üzdə olmadıqlarından fəaliyyətləri də gözə dəymirdi. Keçmiş prezidentlərin xanımları indi nə ilə məşğuldurlar? Həyat yoldaşlarının prezidentlik dövründə hansı rol oynayırdılar?*

### İLK BİRİNCİ XANIM - ADİLƏ MÜTƏLLİBOVA

Azərbaycanın birinci prezidenti Ayaz Mütəllibov 1991-ci ildən 1992-ci ilə qədər həmin postda olub. Həyat yoldaşı Adilə Mütəllibova ixtisasca həkimdir. Ayaz Mütəllibov 1992-ci ildə hakimiyyətdən gedəndən sonra Adilə Mütəllibova onunla birlikdə Moskvada yaşayır. Keçən ilin avqustunda oğlu Azad Mütəllibov vəfat edəndə, o da Ayaz Mütəllibovla birlikdə Bakıya gəlmişdi. Mətbuatla ünsiyyət saxlamır. Keçən il Baklıya gələndə də media ilə əlaqə saxlamamışdı.


Aida Qəmbər

Mütəllibovun ailə dostu, Azərbaycan Sosial Demokrat Partiyasının həmsədri Araz Əlizadə deyir ki, Ayaz Mütəllibov prezident olduğu dövrdə Adilə Mütəllibova əsasən xeyriyyəçiliklə məşğul olub. Gəncliyində həkim işləyib. Ayaz Mütəllibov dövlət işinə keçəndən sonra işləməyib. Hazırda da işləmir: «Ayaz müəllimin həyat yoldaşı Adilə xanım Moskvada, Ayaz müəllimin yanındadır. Əsas işi də Ayaz müəllimə qulluq eləməkdir. Ayaz müəllim ona, o da Ayaz müəllimə qulluq eləyir».

### İKİ AYLIQ BİRİNCİ XANIM

1992-ci ildə Əbülfəz Elçibəy prezident seçilməmişə qədər Ali Sovetin ovaxtkı sədri İsa Qəmbər 2 ay - may-iyun aylarında prezident səlahiyyətlərini icra edib. İsa Qəmbərin həyat yoldaşı Aida Qəmbər (Bağırova) deyir ki, həmin vaxtda Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda baş elmi işçi vəzifəsində çalışırmış: «Həmin dövrdə respublikada son dərəcə mürəkkəb bir durum mövcud idi. Həmin bu vəziyyətdə də rəsmi işlər öndə deyildi. Həmin o birinci təmsilçilik statusu kimi birinci xanımın fəaliyyəti çox məhdud idi. Ancaq bir şeyi qeyd etmək istəyirəm - hətta Elçibəy özü prezident olandan sonra xahiş etmişdi ki, mən müəyyən müddət üçün birinci xanım statusunu davam edim. Sonrakı dövrlərdə də ziyafətlərdə, dövlət tədbirlərində birinci xanım statusundakı fəaliyyətimi yenidən davam etdirirdim».

Aida Qəmbər deyir ki, onun bu fəaliyyəti AXCP iqtidarının sonuna qədər davam edib.

Aida Qəmbər 1993-cü ildən Bakı Dövlət Universitetində işləyir. Tarix fakültəsinin dosentidir. Həm tədris, həm də elmi fəaliyyətlə məşğuldur.

### ƏBÜLFƏZ ELÇİBƏYİN HƏYAT YOLDAŞI HƏLİMƏ ƏLİYEVA

1992-ci ildən 1993-cü ilə qədər Azərbaycanın ikinci prezidenti olmuş Əbülfəz Elçibəyin həyat yoldaşı Həlimə Əliyeva isə Elçibəyin prezidentliyi dövründə onun yanında görünmürdü. Aida Qəmbər deyir ki, bu, həmin vaxt Həlimə Əliyevanın azyaşlı uşaqlarına baxması ilə bağlı olub.

Yazıçı Ədalət Tahirzadə «Elçibəylə 13 saat üz-üzə» adlı kitabında bu haqda Elçibəyə sual verib. Elçibəyin cavabı belə olmuşdu: «Bir çox adamlar məni tənqid edir ki, niyə uşaqları (həyat yoldaşı Həlimə xanımı nəzərdə tutur - Ə.T.) xarici ölkələrə, yaxud hansısa yığıncağa, tədbirə aparmadın? Bilirsiniz, ölkənin vəziyyəti ağır olanda, xalq belə işlərə xüsusən pis baxır və onun buna haqqı var. Ölkənin belə günündə, üzr istəyirəm, arvadını qoltuğuna vurub Avropanı, Amerikanı gəzmək nə deməkdir? Mən düşünürdüm ki, xalq xoşbəxt olsun, sonra biz də istədiyimiz kimi sərbəst yaşayarıq».


Elçibəy ailəsi ilə birlikdə yemək vaxtı. Soldan Simunər xanım, oğlu Ərturqut və qızı Çilənay xanım. Mart 1999-cu il

Hazırda Həlimə Əliyeva mətbuatla əlaqə saxlamır. Elçibəyin ailəsinə yaxın mənbənin dediyinə görə, o, evdar, qonaqpərvər və sadə qadındır. Heç vaxt işləməyib, hazırda da işləmir. İki nəvəsinin tərbiyəsi ilə məşğul olur.


Mehriban Əliyeva

### BİRİNCİ XANIM İNSTİTUTUNUN İLK DAŞLARI

Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri Əli Abbasov deyir ki, hazırda Azərbaycanda birinci xanım statusunun ilk daşları qoyulmaqdadır:

«Azərbaycanda bu ənənə təzədir. Bu, çox müsbət bir haldır. Ümumiyyətlə, birinci ledilər siyasətlə yox, humanitar işlərlə məşğul olur. Bizdə isə birinci xanım həm humanitar fəaliyyətlə, həm də deputat kimi siyasi işlərlə məşğul olur. Bəzi ölkələrdə bu praktika da var. Ona görə də nəinki bizdə, UNESCO, ISESCO kimi beynəlxalq təşkilatlarda da bu fəaliyyət müsbət qəbul olunur. Demək olar ki, birinci ledinin reytinqi bizim cəmiyyətdə böyükdür».

### SON 10 İLİN BİRİNCİ LEDİSİ...

Mərhum Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gələndə, onun həyat yoldaşı Zərifə Əliyeva artıq vəfat etmişdi. Heydər Əliyev prezidentliyinin ilk dövründə tədbirlərdə qızı Sevil Əliyeva ilə birlikdə görünürdü. Sonradan isə əsasən oğlu İlham Əliyev, gəlini Mehriban Əliyeva nəvələri ilə görünməyə başladı.

2003-cü ildən ölkənin birinci xanımı olan Mehriban Əliyeva isə həm parlament üzvü, həm də Heydər Əliyev Fondunun prezidentidir. Bundan başqa o, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Azərbaycan Gimnastika Federasiyasının prezidentidir.

# «Time»: «Eurovision» Azərbaycan üzərindən pərdəni qaldırır


Baku Crystal Hall

**«Time» dərgisi William Lee Adams-ın «Azərbaycanın satılması» başlıqlı yazısını dərc edib. Yazıda qeyd olunur ki, ötən il Ell & Nikki-nin «Eurovision» qələbəsindən sonra ölkə prezidenti İlham Əliyev bu qələbəni hərbi zəfər kimi təqdim etdi.**

### 30 VƏ 277 MİLYON DOLLAR ARASINDAKI FƏRQ

«Özünə inamı olmayan gəncin qonaqlığa zirək uşaqları çağırması kimi, Bakı «Eurovision»a pul əsirgəmir. Adətən hökumətlər bu müsabiqəyə 30 milyon dollar xərcləyirlər. Azərbaycan rəsmən 64 milyon xərcləyəcəyini elan edib. Jurnalistlər isə əsl rəqəmin 277 milyon dollar olduğunu hesablayıblar», - müəllif yazır.

Daha sonra yazıda qeyd olunur ki, Azərbaycanda insan haqlarına hörmət qoyulmur. Heydər Əliyevin 1993-cü ildə qansız çevrilişlə hakimiyyətə gəlməsi, 2003-cü ildə hakimiyyətə oğlunun keçməsindən bəhs olunur. 2009-cu ildə prezidentlik müddətinə qoyulan qadağanın ləğv olunması da qeyd edilir. Ölkədə seçkilərin saxtalaşdırıldığı, jurnalistlərin hücuma məruz qalması, korrupsiya reytinqinin yüksək olduğu bildirilir.

### BİR İLDƏ REKLAMA 38 MİLYON DOLLAR

«Azərbaycan isə bütün bu ittihamları rədd edir, ölkədə demokratiyanın hələ inkişaf etdiyini deyir. Əliyev isə «Azərbaycan» deyiləndə ağla ilk olaraq korrupsiya, repressiya və avtokratiya sözlərinin gəlməməsi üçün yaxşı pullar xərcləyir. Budget.az saytı hesablayıb ki, Azərbaycanda hökumət 2011-ci ildə ölkənin reklamı üçün azı 38 milyon dollar xərcləyib.

Azərbaycan beynəlxalq PR şirkətlərinin təcrübəsindən xüsusilə yararlanıb. 2007-ci ilin sentyabrında Azərbaycan Prezident idarəsi Jefferson Waterman International (JWI) siyasi və biznes konsaltinq şirkətinə bir aya 25.000 dollar ödəyib, «professional xidmətlər» üçün də əlavə ödəniş edilib. Həmin müqavilə bitib, ancaq JWI hələ də Azərbaycan Beynəlxalq Bankını bəzi xidmətlərdə eyni qiymətə təmsil edir.

### ƏN BÖYÜK PR FƏLAKƏTİ

«Bu ölkənin sərvəti beynəlxalq ictimaiyyətdə belə bir mif yaradıb ki, bu gənc demokratiya yavaş və möhkəm tərəqqi edir». Bunu «Amnesty International»ın Avropa və Orta Asiya proqramının direktoru John Dalhuisen deyir.

«Eurovision»la gələn beynəlxalq diqqət isə bu nağılı dəyişə bilər. «Onlar tarixlərində ən böyük PR fəlakətinə doğru gedirlər». Bunu siyasi fəal, xuliqanlıq ittihamı ilə 18 ay həbsdə yatmış Emin Milli deyir: «Mən mətbuata çoxlu müsahibələr verirəm, elə bil tam ştatlı bir işdə çalışıram».

### YÜKSƏK POSTLARDA DOSTLAR

Azərbaycan 2020-ci il Olimpiya Oyunlarını keçirməyə də iddialıdır; BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvüdür, regionda ən böyük neft-kimya kompleksi tikmək üçün beynəlxalq maliyyə cəlb etmək istəyir. Bu, 15 milyard dollara başa gələ bilər. Bu ölkə Dağlıq Qarabağ münaqişəsinin həllində də dəstək almaq istəyir.

Azərbaycan xarici siyasətçiləri, tanınmışları da cəlb edir. 2009-cu ildə Britaniyanın keçmiş baş naziri Tony Blair-in 20 dəqiqəlik çıxışı üçün 143.000 dollar ödənilib. Azərbaycan mediasının «əziz qonaq» dediyi Şahzadə Andrew 2005-ci ildən bəri Azərbaycana azı səkkiz dəfə səfər edib.

### ELÇİYƏ «HƏ» DEYƏN SİYASƏTÇİLƏR

Avropada siyasətçiləri cəlb etmək üçün Bakı elçilər də göndərir. Məsələn, Avropa Azərbaycanlıları Cəmiyyəti (TEAS) «Azərbaycanı beynəlxalq auditoriyalara təbliğ etmək» üçün yaradılıb. Azərbaycanın Londondakı səfiri Qurbanov bu qrupun «hökumətlə əlaqəsi olmadığını» bildirir. Tənqidçilər bu qrupun Avropa siyasətçiləri ilə yaxın münasibətlərinə şübhəylə yanaşırlar. Britaniya hökumətinin Kəşfiyyat və Təhlükəsizik Komitəsindən Mark Field Azərbaycana iki dəfə – 9.000 dollara başa gələn səfərlər edib. Bütün xərcləri TEAS ödəyib. Field TEAS-da müşavirə şurasının üzvüdür, ötən il bu qurumdan 8.000-16.000 dollar alıb.

Tənqidçiləri ən çox narahat edən Azərbaycanın AŞPA-nın keçmiş üzvlərini uğurla ələ almasıdır. Alman Bundestaqının keçmiş üzvü, AŞPA-da Hüquqi İşlər və İnsan Haqları Komitəsinin sədri olmuş Eduard Lintner hazırda Azərbaycanın lobbi qrupunda – Alman-Azərbaycan Münasibətlərinin İnkişafı üçün Berlin Cəmiyyətində işləyir. Lintner Der Spiegel-ə deyib ki, Avropa Şurasından istefasının bir səbəbi bu qurumun Azərbaycanı dəstəkləmək əvəzinə, iddia olunan insan haqları pozuntularını pisləməsi olub.

### POZİTİV MƏTBUAT

«Time» yazır ki, təkcə siyasətçilərlə Bakının dəbdəbəli otellərini doldurmaq mümkün deyil. Azərbaycan potensial turistləri də yoldan çıxarmağa ümid bəsləyir. Xaricilərlə jurnalistlər vasitəsilə əlaqə yaradılır. 2010-cu ildə Londonun böyük jurnal və qəzetlərinin 10 redaktor və yazarından ibarət qrupu xüsusi təyyarə ilə Bakıya gəlib, "Çinar" gecə kafesinin açılışına qatılıb.

"Çinar" səfərindən dörd ay sonra Britaniyanın ən nüfuzlu qəzeti olan Daily Mail-də belə bir başlıqlı yazı çıxdı: «Əsrarəngiz Azərbaycan: Avropanın lap kənarında yerləşən Bakının gələcəyi».

Bu mədhiyyələr çap mediasının sərhədlərini aşmaqdadır. Ötən noyabrda «Time» kimi Time Warner-ə məxsus olan CNN həftə boyu «Azərbaycana Baxış» adlı silsilə verilişlər yayımlayıb. Həmin verilişlərdə ölkədə insan haqları pozuntularına dair heç nə deyilməyib. Yayım vaxtı reklamların pulunu da Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyi ödəyib.

### PƏRDƏ QALXIR

Nə qədər ironik səslənsə də, «Eurovision» Azərbaycanın bahalı imicinə son qoya bilər. Avropanın qəzetləri ölkədə insan haqları pozuntularından yazır. "Eurovision" qaranlığa işıq saçır. Ədalətsizliyi işıqlandırmağın ən yaxşı yolu Azərbaycana gəlmək və bunu «Eurovision» tarixində ən təxribatçı tədbirə çevirməkdir», bunu Milli deyir.

Azərbaycan, 1.500 jurnalist daxil olmaqla, 30.000 qonağın öhdəsindən necə gələcək – bax bu, ən böyük PR testi olacaq.

# Yerevan dağıntı təhlükəsi ilə üz-üzədir



Yerevanda yeni tikililər, 2007

**Ermənistan üçün sunamidən başqa bütün təbii fəlakətlər və fövqəladə hallar xarakterikdir. Məsələn, yazda qarın əriməsi və aramsız leysanlar daşqınlara səbəb olur. Xüsusən də bir neçə rayonda güclü külək tikintiyə, kənd təsərrüfatına və insanların səhhətinə ciddi ziyan vurur. Ermənistanın Fövqəladə Hallar Nazirliyinin xilasetmə xidmətinin rəhbəri Ovanesa Khangeldian'ın dediyinə görə, təbii fəlakətlər sırasında sürüşmələrin də miqyası kifayət qədər böyükdür: «Ermənistanda sürüşmələr təbii fəlakətlər sırasında xüsusi yer tutur. Bizdə 3000-ə yaxın sürüşmə ərazisi var, onlardan 130-u aktiv zonadır. Bunlar çox böyük təhlükə yaradır, çünki elə aktiv zonalar var ki, orada yaşayış evləri yerləşir».**

**«ERMƏNİSTAN TƏBİİ FƏLAKƏTƏ HAZIRDIRMI?»**

Ermənistanda zəlzələ olub, olacaq və praktik olaraq hər gün qeydə alınır. Təbii fəlakətin bu növü 1988-ci il Spitak zəlzələsindən sonra əhalini daha çox narahat edir.

Ovanesa Khangeldian: «Uzun illərdir bizdə elə bir hadisə baş verməyib ki, bütün qüvvəni səfərbər etməyə ehtiyac yaransın. Sonuncu belə hadisə Tavuş rayonunda olub, sürüşmə dağıntılar yaratmışdı. Amma Allah eləməsin, dağıntı 1 milyon insanın yaşadığı Yerevanda olarsa, aydındır ki, kənardan da köməyə ehtiyac yaranar».

**«BİNALARIN 60 FAİZİ TAB GƏTİRMƏYƏCƏK»**

Seysmoloji İdarənin rəhbəri Gurgen Namalian'ın dediyinə görə isə, Yerevan bu gün dağılma riski ilə üz-üzədir. Şəhərdə güclü zəlzələ olarsa - belə bir təhlükə var, çünki Yerevan risk zonasında yerləşir - o zaman binaların 60 faizi tab gətirməyib dağılacaq: «Ermənistanın böyük bir hissəsi üçüncü dərəcəli seysmoloji zonada yerləşir. Bu isə o deməkdir ki, bu ərazilərdə 9 baldan da yuxarı zəlzələ ola bilər. Bu, çox təhlükəlidir, güclü zəlzələ bu zonalarda ciddi dağıntılara gətirib çıxara bilər. Allah eləsin, güclü zəlzələ biz buna hazır olandan sonra baş versin. Yəni binalar zəlzələyə davamlı yeni binalarla əvəzlənsin, çünki hazırkı binalar zəlzələyə davamlı deyillər».

Yerevanda 4-dən çox mərtəbəsi olan bina tikmək olmaz. Bunu da Gurgen Namalian deyir: «3-cü risk zonalarında və 2-3-cü tip süxurlarda 4 mərtəbəlidən çox bina tikmək olmaz. Yerevan da 3-cü risk zonasında yerləşir, süxurları da 2-ci tipə aiddir. Ona görə də burada 4-dən çox mərtəbəsi olan bina tikmək olmaz. Amma fərqli mənzərə görürük. Bunun isə nəticəsi ağır, həm də çox ağır olacaq».

**ZƏLZƏLƏ OLARSA...**

Zəlzələ təhlükəsindən danışarkən Gurgen Namalian ətraf mühit üzrə mütəxəssis kimi Karine Danielian da deyir ki, sıx tikililər, xüsusən də paytaxt Yerevanda riski xeyli artırır. Mütəxəssis deyir ki, tikinti normaları hətta məktəblərə münasibətdə də nəzərə alınmır. Hündürmərtəbəli binalar məktəblərin bir neçə metrliyində tikilir. Bu isə dağıntı baş verən zaman həmin an məktəbdə olan bütün şagirdlərin həyatı deməkdir: «Əksər məktəblərin həyətlərində hündürmərtəbəli binalar tikilir. Fövqəladə vəziyyət yaranarsa, məktəblər təhlükə ilə üz-üzə qalacaq, çünki ətraflarında boş ərazi yoxdur. Allah eləməsin, zəlzələ və ya yanğın olarsa, məktəblilər hara köçürüləcək? Bu hündürmərtəbəli binaların altınamı?».

***Lilit Harutyunyan***



Spitak - 1988



# Məni nə ağlatdı?!

Mayın 4-də işə gələn kimi həmkarlarımın Daşkəsənin Çovdar kəndindən olan video reportajına baxmalı oldum. Baxmamaq mümkün deyildi. Video özü səni çağırırdı. 5 dəqiqə 48 saniyəlik baxışdan sonra hönkürüb ağladım. Ona görə yox ki, Vətənin var-dövləti Talan olurdu. Ona görə yox ki, Xalq bu dərəcədə Avam idi. Ona görə yox ki, Vətənin bir parçası Viranə qalmışdı.

Ona görə yox...

Bəs nəyə görə?

Ona görə ki, kəndin adamları dilənçi günündə idilər...

Ağızlarında dişləri yox, cavankən qocalmış, əyin-başları nimdaş, ev-eşikləri tökülmüş, balaları ac...

Yenə deyimmi?

Axı, Daşkəsən belə deyildi.

Mənim uşaqlığım oranın yaylaqlarında keçib. Alaxançalda, Xaçbulaqda, Zağalıda...

Nə gözəl yerlər idi!

Həyatımda hələ heç yer məni elə ovsunlamayıb.

Hərdən yuxuma girir...

İnanın, oranın meşələri, dağları, bulaqları, gülləri, çiçəkləri, quşları bir aləmdir!

Hələ adamları...istiqanlı, qonaqcıl...

Hansı evə gedərdin, səni yedirib-içirməyə çalışardılar.

Qalın yorğan-döşəkləri, hündür yastıqları olardı. Yatanda içində itib batardın.

Bəs indi nə oldu belə?

Sovetlər dövründə-işğal zamanında qarnıtox yaşayanlar öz müstəqil ölkələrində niyə dilənçiyə döndülər?

Kimdir günahkar?

Qızıl üstündə yaşayanlar niyə qara qəpiyə həsrətdirlər?

Mən bir qulam, yerim altun, suyum gümüş, özüm ac...

Atam məhkum, anam salih, elim hər şeyə möhtac!? (Əhməd Cavad)

İstiqlal şairi bu misraları az qala 1 əsr öncə yazıb.

Bəs biz niyə dəyişmirik?

Bu qədər uzun sürən bədbəxtliyin səbəbkarı bəlkə "hər şeyə möhtac xalqın" özüdür?

Nə deyirsiniz?!

***Sevda İsmayıllı***

# İranda reperə ölüm fətvası çıxarılıb


Ayatullah Safi Golpayegani

İranın Qum şəhərindəki ayətullahı Safi Golpayegani reper Shahin Najafinin ölümünə dair fətva ilə çıxış edib. Fətvada onun İslam dinindən döndüyünə və xristianlığı qəbul etdiyinə görə ölümə layiq olduğu bildirilib.

"Al-Arabiya" xəbər verir ki, Shahin Najafinin "Naqi" adlı mahnısı ayətullahları və ümumiyyətlə, İranın mövcud teokratik hakimiyyətini çox əsəbiləşdirib. Bu mahnıda 10-cu imam Naqidən bəhs edilir. Ayətullah fətvasında bəyan edib ki, repçi mahnısında 10-cu imamı və ümumiyyətlə, İslamı təhqir edib. Bu fətvadan sonar Facebook-da və sigrə şəbəkələrdə Najafiyə qarşı aqressiv kampaniya başlanılıb. H'tta reperi öldürənə 100 min dollar mükafat da vəd edilib.

Shahin Najafi 2005-ci ildə İranı tərk edərək Almaniyaya mühacirət edib. Hazırda Almaniyada musiqi qruplarından birində çalışır.

# Almaniyada iki "Nobel" mükafatçısının davası


Herta Müller


Gunter Grass

*"O, mənim üçün öz mənəvi avtoritet statusunu çoxdan itirib". "Nobel" mükafatlı alman yazarı Herta Müller bunu mükafatın almaniyalı digər sahibi Günter Grass haqda deyib: "Çünki o, SS-də (Hitlerin nasist partiyasına tabe hərbi birləşmələr – red.) xidmət etməsini onilliklər boyu gizlədib".*

Oxuzali.az xəbər verir ki, Braziliya mətbuatına müsahibə verən Herta Müller bunları Grass-ın İsraili tənqid edən şeir yazması ilə bağlı sualı cavablandırarkən deyib. Grass bu yaxınlarda yazdığı şeirdə İranın yox, İsrailin dünyada sülhə təhlükə olduğunu qeyd etmişdi. Bundan sonra İsrail rəhbərliyi onu sərt tənqid edərək ölkəyə gəlməsinə qadağa qoymuşdu.

H.Müller deyib: "Grass reallığı təhrif edir. İran İsraili məhv etməklə hədələyir, əksinə, yox".

2006-cı ildə, yəni "Nobel" mükafatını alandan 7 il sonra Grass etiraf etmişdi ki, 2-ci Dünya müharibəsi zamanı qısa müddətdə SS-də xidmət edib. Çünki o zaman bunu, sadəcə, "elit ordu hissəsi" sayırdı və müharibə zamanı nə bir güllə atıb, nə də müharibə cinayəti törədib. Bu açıqlama o zaman böyük qalmaqala səbəb olmuşdu.

Herta Müller Braziliyaya öz kitablarının təbliği üçün səfər edib.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | AzadlıqFM / Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr/ Qaynar Xətt |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | AzadlıqFM / Qaynar Xətt / Pen Club / İz / Korrupsiyametr |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | 14-24 / Qaynar Xətt / Azadlıq Bölgələrdə / Pen club / AzadlıqFM / İz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər (şənbə, bazar) |
| 15:05 | Qərb musiqisi. AzadlıqFM / Korrupsiyametr (şənbə-bazar) |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər (şənbə, bazar) |
| 16:05 | Qərb musiqisi / İşdən sonra (şənbə, bazar) |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra / Korrupsiyametr (hər cümə axşamı) |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Kontekst / Online-vəkil (şənbə) |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Qaynar Xətt / Pen club |
| 20:30 | 14-24 / Qaynar Xətt / İslam və demokratiya / Pen club / İz / Korrupsiyametr |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Qafqaz Qovşağı |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra / İz / Azadlıq bölgələrdə / 14-24 |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Tualet pulsuz oldu




***«Eurovision» keçiriləcək deyə, «İçərişəhər» metrostansiyasında ayaqyolu pulsuz oldu. Yükləyib: Elçin Həsənov***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Multimedia

## Son videolar:

### VİDEO Və FOTOLAR



Azərbaycanda (VIDEO)

Gül bayramının xronikası



Fotoqalereya

Erməni hərbi qüvvələri Qarabağda parad keçiriblər



Dünyada (VİDEO)

Dəməşqdə partlayışlarda yüzlərlə adam ziyan çəkib

### VİDEO Və FOTOLAR



Dünyada (VİDEO)

Olimpiya məşəli yandırıldı



Fotoqalereya

Zəlzələ bölgəsindən son görüntülər



Azərbaycanda (VIDEO)

Beynəlxalq Velosiped turuna start verilildi

**Bizimlə əlaqə:**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

**E-mail:** efir@AzadliqRadiosu.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz